**Rumıniyanın Xarici İşlər Nazirliyinin 2022/2023-cü tədris ili üçün təhsil təqaüd proqramı**

Rumıniya Xarici İşlər Nazirliyi 2022/2023-cü tədris ili üzrə ali təhsilin müxtəlif səviyyələri üzrə təqaüd proqramı elan edir.

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura

**Tədris dili:** rumın dili (bakalavriat və magistratura səviyyələri üçün); ingilis və ya digər dillər ( doktorantura təhsil səviyyəsi üçün)

**İxtisaslar:** istənilən maraq sahəsi üzrə

*Qeyd: tibb,stomotologiya və əczaçılıq ixtisasları nəzərdə tutulmamışdır.*

**Maliyyələşmə:** təhsil haqqı, yataqxana xərcləri, aylıq təqaüd (bakalavriat - 65 avro, magistratura təhsil səviyyəsi üçün 75 avro, doktorantura 85 avro).

**Təqaüd proqramı barədə ətraflı məlumatı keçiddən əldə etməyiniz mümkündür.**

**Müraciət üçün son tarix: 15.03.2022-ci il**

Müsabiqədə iştirak etmək istəyən Azərbaycan Respublikası vətəndaşları https://scholarships.studyinromania.gov.ro/ keçidinə daxil olaraq onlayn ərizə formasını doldurmalı və tələb olunan sənədləri müvafiq qaydada elektron sistemə daxil etməlidir.

**Yalnız onlayn elektron ərizə formasını tamamlamış namizədlərin müraciətləri nəzərə alınacaqdır.**

**Namizədlərin seçimi Rumıniyanın aidiyyəti nazirlikləri tərəfindən həyata keçirilir.**

Təqaüd proqramı ilə bağlı hər hansı sual yaranacağı təqdirdə https://scholarships.studyinromania.gov.ro/scholarship-contact-form keçidindən istifadə etməyiniz və ya Rumıniyanın Azərbaycandakı Səfirliyi ilə əlaqə saxlamağınız tövsiyə edilir.